**UOT 330.341:316.4**

# İQTİSADİ NƏZARƏT MODELLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNİN SOSİAL VƏ İQTİSADİ NƏTİCƏLƏRİ

**Nurəddin VƏLİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 26 fevral 2025; çapa qəbul edilmişdir: 18 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 26th of February, 2025; accepted: 18th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *iqtisadi nəzarət modelləri, iqtisadi sabitlik, sosial bərabərlik, iqtisadi inkişaf, iqtisadi siyasət, sosial təsirlər, işsizlik, sosial rifah*

## Giriş

İqtisadi nəzarət modelləri ölkələrin inkişafı üçün çox vacib amildir. Bu modellər iqtisadi sabitliyi qorumaq, resursların səmərəli istifadəsini və optimal bölüşdürülməsini təmin etmək üçün müxtəlif metodlardan istifadə edir. İqtisadi nəzarət modelləri dövlət və bazarın iqtisadi fəaliyyətlərə təsirini müəyyənləşdirən alətlərdir və onların həm sosial, həm də iqtisadi nəticələrini əks etdirir. İqtisadiyyatın səmərəli idarə edilməsi və tənzimlənməsi fərdi və cəmiyyət səviyyəsində mühüm əhəmiyyətə malikdir. Effektiv nəzarət modellərindən istifadə etməklə iqtisadiyyatın və sosial rifahın yüksək inkişafına nail olmaq olar. Lakin müxtəlif nəzarət yanaşmaları fərqli nəticələrə gətirib çıxara bilər.

Bu məqalənin əsas məqsədi iqtisadi nəzarət modellərinin tətbiqinin sosial və iqtisadi nəticələrini araşdırmaqdır. Müxtəlif nəzarət modellərinin tətbiqi iqtisadi sistemin müxtəlif sahələrində dəyişikliklərə səbəb ola bilər. Bu dəyişikliklərə resursların ədalətli bölüşdürülməsi, səmərəli istifadəsi, iqtisadi dayanıqlığın artırılması, iqtisadi böhranın qarşısının alınması, işsizlik səviyyəsinin azalması, sosial bərabərliyin və rifahın təmin olunması kimi əhəmiyyətli nəticələr daxildir. Effektiv nəzarət mexanizmlərinin uğuru onların düzgün tətbiqi ilə yanaşı, sosial və iqtisadi mühitlə bağlı xarici amillərdən də asılıdır. Məqalənin məqsədi hər bir modelin spesifik xüsusiyyətlərini və tətbiq olunduğu mühitdə yaratdığı təsirləri daha dərindən anlamaqdır. Bu çərçivədə, həm nəzəri yanaşmalar, həm də konkret təhlillər üzərində dayanılacaqdır.

## 1. İqtisadi nəzarət modellərinin növləri

İqtisadi nəzarət modelləri dövlətin və ya digər müvafiq qurumların iqtisadiyyatı tənzimləmək, idarə etmək və sabitləşdirmək üçün tətbiq etdiyi nəzəri və praktik mexanizmlərdir. Bu modellər bazarın işini tənzimləyərək, iqtisadi inkişafı dəstəkləmək və sosial ədaləti təmin etmək məqsədi daşıyır. Müxtəlif iqtisadi, sosial və siyasi mühitlərə uyğunlaşan bir neçə nəzarət modelini qeyd etmək olar:

*Planlı iqtisadiyyat modeli:* Bu modeldə iqtisadiyyatın əsas sahələri (istehsal, qiymətlərin tənzimlənməsi və s.) mərkəzi dövlət orqanları tərəfindən idarə edilir. Dövlətin iqtisadiyyata müdaxiləsi çox yüksək olur və bazar azadlığı məhdudlaşır. Keçmiş SSRİ

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* veliyevnureddin11@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.4.075**

iqtisadiyyatı buna nümunədir. SSRİ-də iqtisadiyyat dövlətin tam nəzarəti altında idi və qiymətlər dövlət tərəfindən tənzimlənirdi. Bu sərt müdaxilə bazarın əsas komponentləri olan tələb, təklif və rəqabət balansını pozmuş, bazarın stimullaşdırıcı amillərini yox etmişdir. Tələb və təklif qüvvələrinin qarşılıqlı təsiri ilə formalaşan qiymətlərin dövlət tərəfindən təyin olunması bazarın işləmə prinsipini pozur, rəqabətin məhdudlaşması isə modelin səmərəliliyini azaldır.

Azad Bazar Nəzarət Modeli: Azad bazar modelində istehsalçılar və istehlakçılar sərbəst şəkildə müstəqil qərarlar alır, qiymətlər isə tələb və təklif balansına əsasən formalaşır. Bu modeldə bazar özünü tənzimləyir və dövlət müdaxiləsi minimuma endirilir. Dövlətin müdaxiləsi yalnız bazarın özünü tənzimləyə bilmədiyi inhisarlaşma kimi hallarda artır.

İnhisar (yunanca "monopoliya", mənası "tək satıram") hər hansı bir fəaliyyətin həyata keçirilməsi üçün dövlətin, müəssisənin və ya satıcının müstəsna hüququnu ifadə edir. "Öz təbiətinə görə azad rəqabət, kortəbii bazarın əsaslarını dağıdan qüvvə kimi çıxış edir" [4, s. 164]. Əgər azad bazarda bir istehsalçı bazar payını artıraraq digər rəqibləri bazardan çıxararsa, tək istehsalçı olaraq qiyməti özü müəyyənləşdirəcək. Bu halda dövlətin müdaxiləsi artır və bazarın iflasının qarşısı alınmağa çalışılır.

F.Hüseynovun "İqtisadi nəzəriyyənin əsas prinsipləri" əsərində qeyd edildiyi kimi, "Adətən, bazar iqtisadi fəaliyyətin təşkilini çox səmərəli koordinasiya edir. Lakin bu qaydadan bəzi mühüm kənarlaşmalar mövcuddur. Odur ki, bəzən dövlət bazara müsbət təsir etmək imkanına malik olur" [3, s. 172]. Əgər dövlət vaxtında müdaxilə etməzsə, bazar fiaskosu (bazarda iflas halı) baş verə bilər ki, bu da cəmiyyət və dövlət üçün iqtisadi və sosial zərərlə nəticələnir.

*Yarı-mərkəzləşdirilmiş model:* Yarı-mərkəzləşdirilmiş nəzarət modeli həm dövlətin, həm də bazar qüvvələrinin rol oynadığı bir sistemdir. Bu modeldə iqtisadiyyatın bəzi sahələrinə dövlət müdaxiləsi olur, digərlərində isə sərbəst bazar prinsipləri tətbiq edilir. Bunu sosialist və kapitalist iqtisadiyyatların birləşməsi kimi də görmək olar. Dövlət strateji və sosial sahələri tənzimləyir, eyni zamanda sərbəst ticarətə şərait yaradır. Bu model, sosial rifahı ön planda tutan İsveç və Danimarka kimi ölkələrdə geniş yayılıb.

*Sosial iqtisadi nəzarət modeli:* Bu model sosial və iqtisadi amillərin insan davranışlarına necə təsir etdiyini anlamağa çalışır. Məqsəd sosial və iqtisadi strukturların insanların həyat keyfiyyətini necə müəyyənləşdirdiyini öyrənmək və cəmiyyətdəki rifah səviyyəsini yüksəltməkdir. Bu modelin komponentlərinə sosial nəzarət, iqtisadi struktur, sosial sərhədlər və qanunvericilik daxildir. Əsas məqsədlər davranışların izlənilməsi, ədalətli resurs paylanması, sosial sülh və sabitlikdir. Qısacası, bu model sosial və iqtisadi bərabərsizliyi azaltmağa yönəlir. Almaniya və bəzi Avropa ölkələri buna nümunədir. Bu ölkələrdə dövlət təkcə bazarı tənzimləmir, həm də sosial proqramları həyata keçirir.

## 2. İqtisadi nəzarət modellərinin tətbiqinin sosial təsirləri

İqtisadi nəzarət modellərinin tətbiqi cəmiyyətin müxtəlif sosial təbəqələrinə, insanların həyat səviyyəsinə və sosial bərabərliyə təsir göstərir. Dövlətin sosial siyasəti bu təsirlərin mühüm tərkib hissəsidir. "Sosial siyasət dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial-iqtisadi tədbirlər sistemidir" [2, s. 113]. Effektiv nəzarət modellərinin tətbiqi işsizlik, təhsil və yoxsulluq kimi sahələrdə dəyişikliklərə səbəb ola bilər.

*Sosial bərabərsizliklərə təsir:* İqtisadi nəzarət tədbirləri sosial bərabərsizliklərə fərqli təsir edə bilər. Aşağı gəlirli ailələrin rifahını artırmaq məqsədilə görülən addımlar

yüksək gəlirli təbəqələr üzərində əlavə vergi və ya sərt tənzimləmələr tətbiq edilməsi ilə nəticələnə bilər. Lakin bəzən yüksək gəlirli təbəqələr sərt vergi normalarına çevik uyğunlaşa bildikləri üçün bu siyasətlər uğursuz ola bilər. Aşağı gəlirli təbəqələr isə dövlətin tətbiq etdiyi sosial müavinətlər, təhsil və səhiyyə xidmətləri vasitəsilə birbaşa fayda əldə edə bilərlər. Lakin sərt nəzarət siyasəti, xüsusilə bazar mexanizmlərini məhdudlaşdırdıqda, bəzi təbəqələr üçün iş imkanlarının azalmasına səbəb ola bilər.

*Sosial xidmətlər və rifah sistemi:* İqtisadi nəzarət tədbirləri sosial xidmətləri və əhalinin rifah səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. İqtisadi artım və sabitlik dövlətin gəlirlərini artırır və bu da təhsil, səhiyyə kimi sahələrə daha çox vəsait ayrılmasına imkan yaradır. Bu cür tədbirlər yoxsulluğun azaldılmasına və sosial bərabərliyin təmin olunmasına kömək edir. Məsələn, az təminatlı ailələrə verilən sosial müavinətlər və mənzil təminatı onların həyat şəraitini yaxşılaşdırır. Lakin inflyasiyanı nəzarətdə saxlamaq üçün həyata keçirilən sərt monetar siyasətlər sosial xidmətlərə ayrılan büdcəni məhdudlaşdıraraq rifah səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər.

*İşsizlik və sosial gərginlik:* İşsizlik həm iqtisadi, həm də ciddi sosial təsirlərə səbəb olan bir problemdir. "İşsizlik, iqtisadi fəal əhalinin müəyyən hissəsinin öz iş qüvvəsini tətbiq edə bilmədiyini əks etdirən sosial-iqtisadi hadisədir" [1, s. 86]. İşsizlik səviyyəsinin yüksək olması insanların həyat şəraitini pisləşdirir və sosial gərginliyi artırır. İşsizlik cinayətkarlığın artmasına və ictimai qruplar arasında bərabərsizliyin dərinləşməsinə səbəb ola bilər. Yunanıstan kimi ölkələrdə bu problem sosial etirazlara və hökumətlə əhali arasında qarşıdurmaya yol açır. Sərt iqtisadi nəzarət siyasətləri, məsələn, yüksək vergilər, kiçik və orta sahibkarlıq üçün əlverişli şərait yaratmadığına görə işsizliyin artmasına səbəb ola bilər.

## 3. İqtisadi nəzarət modellərinin tətbiqinin iqtisadi nəticələri və inkişaf perspektivləri

İqtisadi nəzarət tədbirləri yalnız sosial deyil, həm də iqtisadi inkişafa, istehsala, investisiyalara və bazar münasibətlərinə də təsir edir. Bu modellər makroiqtisadi göstəriciləri (inflyasiya, iqtisadi artım və s.) tənzimləməklə iqtisadi böhranların qarşısını almağa və dayanıqlı artımı sürətləndirməyə kömək edir.

*İqtisadi sabitlik və inflyasiya nəzarəti:* İqtisadi nəzarət modellərinin ən vacib nəticələrindən biri iqtisadi sabitliyin təmin edilməsidir. Pul və büdcə siyasətləri vasitəsilə inflyasiyanın idarə edilməsi daha sabit və proqnozlaşdırıla bilən bir iqtisadi mühit yaradır. Nəzarətsiz inflyasiya istehlak qiymətlərini artırır, istehlakçı etimadsızlığını və qeyri-sabitliyi artırır. Bu da investisiya mühitini zəiflədir.

*İşsizlik:* Sərt maliyyə siyasətləri və ticarət məhdudiyyətləri iş yerlərinin azalmasına və işsizlik səviyyəsinin artmasına səbəb ola bilər. İşsizlik həm sosial narazılığa, həm də iqtisadi qeyri-sabitliyə yol açır. Xüsusilə gənc və təcrübəsi az olan əhali qrupları üçün iş imkanlarının azalması sosial etirazlara səbəb ola bilər. İqtisadi siyasətlər tətbiq olunarkən işsizliyin azaldılması üçün birbaşa əmək bazarına müdaxilə edilməlidir. Yeni iş yerlərinin yaradılması ilə işsizlik səviyyəsinin azaldılması mümkündür.

*İqtisadi perspektivlər və gələcək inkişaf:* Gələcəkdə iqtisadi nəzarət modelləri dayanıqlı və çevik olmalıdır. Texnologiyanın inkişafı və qlobal əlaqələrin artması ilə bu modellərin qlobal və yerli bazarların tələblərinə uyğunlaşdırılması vacibdir. Daha şəffaf və ədalətli yanaşma, optimal resurs idarəçiliyi və bərabərsizliklərin aradan qaldırılmasına kömək edəcək. Uzunmüddətli inkişaf üçün dövlət iqtisadi sabitlik yaratmalı, investisiya mühitini qorumalı, xarici investorları cəlb etməli və yerli istehsalı stimullaşdırmalıdır. Vergi güzəştləri sərbəst iqtisadi zonaların yaradılması və sərfəli kredit şərtləri bu məqsədlərə xidmət edə bilər.

**Nəticə**

İqtisadi nəzarət modelləri həm müsbət, həm də mənfi təsirlər yarada bilər. Onların məqsədi iqtisadi sabitliyi və uzunmüddətli artımı təmin etmək olsa da, tətbiqi sosial bərabərlik və rifah baxımından müxtəlif nəticələrə səbəb ola bilər. Düzgün və balanslı iqtisadi siyasətlər sosial və iqtisadi sabitliyi təmin edə, sosial ədaləti gücləndirə bilər. Lakin sərt və bürokratik nəzarət modelləri işsizliyin artmasına, investisiya mühitinin zədələnməsinə və sosial çətinliklərin dərinləşməsinə səbəb ola bilər.

Dövlətin iqtisadi siyasətləri sosial ədalət və bərabərlik prinsipləri ilə balanslaşdırılmalıdır. Tətbiq olunan sistemlər daha çevik və adaptiv olmalı, iqtisadiyyatın davamlı inkişafını təmin etməklə yanaşı, sosial təsirləri də nəzərə almalıdır. Beləliklə, iqtisadi nəzarət siyasətləri yalnız iqtisadi sabitlik üçün deyil, həm də cəmiyyətin ümumi rifahını yüksəltmək üçün xidmət etməlidir.

## ƏDƏBİYYAT

1. Aslanlı K., Əhmədov İ., Əhmədov Ş. Dövlət maliyyəsi terminləri lüğəti. Bakı: AAHDM, 2008, 152 s.
2. Hacızadə E. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509 s.
3. Hüseynov F. İqtisadi nəzəriyyənin əsas prinsipləri. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti nəşriyyatı, 2015, 324 s.
4. Kərimov E., Osmanov B. İqtisadi nəzəriyyə. Bakı: Vətən, 2010, 630 s.

***Резюме***

***Нуреддин Валиев***

***Иктисади назарит моделлеринин хята кечирилмасинин сосиал в иктисади нетикалерри***

В статье рассматриваются социальные и экономические последствия моделей экономического контроля. Модели экономического контроля – это инструменты, используемые для обеспечения экономического развития стран, поддержания стабильности и эффективного распределения ресурсов. Основная цель статьи  – рассмотреть влияние различных моделей экономического контроля на социальную и экономическую сферы. В первой части статьи рассматриваются типы моделей экономического контроля. Во второй части статьи рассматриваются социальные последствия применения моделей экономического контроля, а в третьей части – экономические последствия применения моделей экономического контроля. Во второй части рассматривается влияние моделей на такие области, как безработица, образование, бедность и социальное равенство. Меры экономического контроля могут быть реализованы для сокращения социального неравенства, снижения уровня безработицы и повышения социального благосостояния. Однако некоторые радикальные экономические меры могут создать трудности в адаптации к рыночным условиям и иногда могут усугубить неравенство между социальными классами. В третьей части статьи анализируются экономические результаты и перспективы развития моделей экономического регулирования. Были затронуты такие темы, как экономическая стабильность, инфляция, экономический рост и инвестиционная привлекательность. Экономический контроль может помочь предотвратить экономические кризисы и ускорить экономическое развитие. Однако строгое регулирование может ограничивать развитие малого и среднего бизнеса. В целом, модели экономического контроля при правильной реализации могут способствовать улучшению как социального, так и экономического благосостояния. Однако их применение должно быть сбалансировано с принципами социальной справедливости и равенства. Жесткие экономические меры могут вызвать недовольство некоторых социальных групп. Если экономическая политика государства соответствует принципам социальной справедливости и равенства, она может способствовать повышению общего благосостояния общества.

**Ключевые слова:** *Модели экономического контроля, экономическая стабильность, социальное равенство, экономическое развитие, экономическая политика, социальные последствия, безработица, социальное обеспечение*

***Summary***

***Nureddin Valiyev***

***Social and Economic Consequences of İmplementing Economic Control Models***

This article examines the social and economic consequences of economic control models. Economic control models are tools used to ensure the economic development of countries, maintain stability, and efficiently allocate resources. The main purpose of the article is to examine the impact of various models of economic control on the social and economic sphere. The first part of the article discusses the types of economic control models. The second part of the article examines the social consequences of the application of economic control models, and the third part examines the economic consequences of the application of economic control models. The second part examines the impact of the models on areas such as unemployment, education, poverty, and social equality. Economic control measures can be applied to reduce social inequality, reduce unemployment, and increase social welfare. However, some drastic economic measures can create difficulties in adapting to market conditions and sometimes deepen inequalities between social classes. The third part of the article analyzes the economic consequences and development prospects of economic control models. Topics such as economic stability, inflation, economic growth, and investment attraction are touched upon. Economic control can help prevent economic crises and accelerate economic development. However, strict regulations can limit the development of small and medium-sized businesses. In general, economic control models, when properly implemented, can help improve both social and economic well-being. However, their implementation must be balanced with the principles of social justice and equality. Strict economic measures can cause dissatisfaction among some social groups. If the state's economic policy is aligned with the principles of social justice and equality, this can serve to increase the general well-being of society.

**Key words:** *Economic control models, economic stability, social equality, economic development, economic policy, social impacts, unemployment, social welfare*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.